AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: İqtisadiyyat və idarəetmə**

**Təsdiq edirəm:**
**“İctimai idarəetmə və sosial innovasiyalar”**
**kafedrasının müdiri: i.f.d. dos. E. Q. Məmmədov**
**Tarix: Protokol:**

# “REGIONAL SOSIAL IŞ” fənni üzrə

# İŞÇİ TƏDRİS PROQRAMI

# (Sillabus)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | 00725 |
| **Fənnin növü:** | seçmə |
| **Tədris ili:** | 2025/2026 |
| **Fənnin tədris semestri:** | payız |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Qrup(lar):** | |
| **Tədris yükü:** | 30/30 saat |
| **Kredit sayı:** | 6 |
| **Kafedra:** | “İctimai idarəetmə və sosial innovasiyalar” |

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** *i.e.n., dos. Təranə Kərimova*

**E-mail ünvanı:** taranakarimov@gmail.com

**İş telefonu:**

**Tələbələr üçün qəbul vaxtları:** II, IV günlər 14.00-16.00-dək

## III. Fənnin təsviri

"Regional sosial iş" fənninin mövzuları, regionlarda sosial problemlərin həlli üçün sosial iş müdaxiləsi məsələlərini özündə ehtiva edir. Geniş mənada regional sosial işin obyekti bütün region əhalisidir.

Bu kursda sosial iş ixtisasından məzun olacaq tələbələrə gələcəkdə işləyəcəyi regionda göstərəcəyi xidmətlər nümunələr əsasında izah edilir. Regional sosial iş region əhalisinin sosial problemlərini həm fərdi, həm də ictimai, iqtisadi və mədəni baxımdan dəyərləndirilməsini və rifahı yaxşılaşdırmaq üçün terapevtik yardım yolu ilə müraciətçilərin gücləndirilməsini təmin edir.

Regional sosial iş ciddi və həssas davranış tələb edir, çünki regionda yaşayan insanların həyatına birbaşa təsirlə bağlıdır. İnsan hüquqları və sosial ədalət kimi təməl dəyərlərə əsaslanan regional sosial iş tələbələri peşə təcrübələrini professional şəkildə yerinə yetirmələrinə istiqamətləndirir.

Regionlarda sosial iş müdaxiləsi təcrübəsini öyrənməyi hədəfləyən bu fənn 15 mövzudan ibarətdir. Hər mövzu fərqli bir problem həlli üçün, nümunələr əsasında sosial işə müdaxilə planına uyğun hazırlanmışdır. Bu fənn regionların sosial-iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

## IV. Fənnin məqsədi və vəzifələri

Regional sosial işin əsas hədəfi regional sosial problemlərin həll edilməsi prosesinə yönəlməkdir. Bu fənnin tədris olunma məqsədi regionlarda müraciətçilərə sosial işə müdaxiləsini hansı metod və üsullarla, necə tətbiq olunduğunu öyrətməkdir.

*Fənnin əsas məqsədi*: Regional sosial siyasət çərçivəsində vacib sosial problemlərin həll etməyi bacaran peşəkar mütəxəssislər yetişdirməkdir.

Fənnin tədrisi qarşısında duran *vəzifələr* aşağıdakılardır:

- Regional sosial işi praktiki əsasda öyrənmək;
- Regional sosial iş müdaxiləsi ilə bağlı yerli və xarici təcrübəni öyrənmək;
- Regionlarda məsləhət, vasitəçilik, sosial müalicə, sosial reabilitasiya kimi vəzifələrin yerinə yetirilməsini öyrənmək;
- Regional səviyyədə əhalinin müxtəlif qrupları ilə sosial iş metodlarını öyrənmək;

- Regional səviyyədə sosial iş layihələrinin hazırlanmasını və idarə olunmasını öyrənmək;
- Azərbaycan regionlarında sosial işin həyata keçirilməsi funksiyalarını, prinsiplərini və əsas istiqamətlərinin öyrənmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində təqdimat əsasında mühazirələr oxumaq, interaktiv müzakirələr aparmaq, kiçik qruplarla iş, keyslər və test tapşırıqlarının yerinə yetirilməsi kimi müxtəlif tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə internet resurslarından götürülmüş məqalələrin, real nümunələrin təhlilinə, müzakirəsinə və nəticələr çıxarılmasına önəm veriləcək. Verilən biliklərin tətbiqi bacarıqları formalaşdırması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlar həll edəcəklər.

## VI. Öyrənmənin nəticələri:

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

- Regional səviyyədə sosial işçilərin rollarını və funksiyalarını dərk edir;
- Region əhalisinin müxtəlif problemlərinin səbəbini müəyyən edir, dəyərləndirir və müvafiq müdaxilələr edir;
- Region əhalisinin sosial problemlərini fərdi, ictimai, iqtisadi və mədəni baxımdan dəyərləndirilməsini və sosial rifahı yaxşılaşdırmaq üçün terapevtik üsulla müraciətçilərin gücləndirilməsini təmin edir;
- Regional sosial işin ən vacib komponenti olan müraciətçilərin ehtiyac və maraqlarına uyğun xidmət təqdim edə bilir;
- Regional sosial işin həyata keçirilməsi prinsiplərini dərk edir;
- Regionun sosial əhəmiyyətli problemlərini və prosesləri elmi obyektivliklə təhlil etməyi bacarır;
- Regional səviyyədə problemlərə uyğun sosial iş layihəsi hazırlamağın və həyata keçirməyin əhəmiyyətini anlayır.

Kursun tədrisi başa çatanda və bütün mövzuları mənimsədikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Regional səviyyədə sosial işin prinsiplərini, məqsədlərini və istiqamətlərini;
- Regional sosial işin həyata keçirilməsi metodlarını, sosial işçinin rol və funksiyalarını;
- Region insanının həyatını pozan risk faktorlarını və risk altındakı şəxsləri müəyyənləşdirmək üçün hazırlanmış sosial risk yoxlama metodunu;

- Region əhalisinin yaşından, cinsindən, dilindən, dinindən, milliyyətindən, əqidəsindən asılı olmayaraq sosial müdafiəyə bərabər çıxış imkanlarının təmin olunmasını;
- Region üzrə müxtəlif sahələrdə: təhsil, sağlamlıq, ədliyyə və sosial müdafiə sahəsində sosial iş texnologiyalarını.

**Bacarmalıdırlar**:

- Regional səviyyədə dövlətin sosial siyasətinin reallaşması və region əhalisinin sosial müdafiəsinin təmin olunması ilə bağlı təkliflər hazırlamaq;
- Ərazi, regional və mərkəzi səviyyələrdə əhalinin müxtəlif qruplarına kömək üçün xüsusi layihələr hazırlamaq;
- Çətin həyat şəraitində olan insanların, sosial qrupların və icmaların sosial problemlərinin həllinə yönəlmiş təklif və tövsiyələr hazırlamaq;
- Regional sosial problemlər üçün uyğun yanaşma və müdaxilə metodlarını seçmək və tətbiq etmək;
- Regionda sosial analiz və qiymətləndirmə aparmaq, müayinə hesabatı hazırlanması üçün müvafiq məlumatları ayırmaq və toplamaq;
- Regionlarda ən kəskin sosial problemləri müəyyənləşdirmək və düzgün şərh etmək, əhali ilə sosial iş sahəsində effektiv həllər üçün variantlar hazırlamaq və əsaslandırmaq.

## VII. Prerekvizitlər

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

Mövzu: 1. Fənnin predmeti, məqsədi və vəzifələri
Mövzu: 2. Regional sosial problemlər
Mövzu: 3. Regional sosial-iqtisadi inkişaf indikatorları
Mövzu: 4. Regional sosial siyasətin konsepsiyaları
Mövzu: 5. Regional yoxsulluq və ona qarşı mübarizə
Mövzu: 6. Regional işsizlik və həlli yolları
Mövzu: 7. Regionlarda təhsil problemi və həlli yolları
Mövzu: 8. Regionlarda əhalinin sağlamlıq problemi və həlli yolları
Mövzu: 9. Regionlarda əhaliyə göstərilən sosial xidmətlər
Mövzu: 10. Sosial siyasətin regional aspektləri
Mövzu: 11. Əhalinin həyat səviyyəsini yüksəldən müxtəlif rifah vasitələri
Mövzu: 12. Regional sosial inkişafın maliyyə təminatı
Mövzu: 13. İşğaldan azad olunmuş ərazilərdə əhali məskunlaşması poblemi
Mövzu: 14. Dövlətin regional sosial siyasəti və sosial inkişaf proqramları

Mövzu: 15. Regional sosial işin təşkilində beynəlxalq təcrübə

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, müzakirə sualları və tapşırıqlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və ədəbiyyat


1. Sosial xidmət haqqında Azərbaycan Respublikasinin Qanunu, Bakı şəhəri, 30 dekabr 2011-ci il.

2. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. http://www.e-qanun.az

3. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.

4. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh.

5. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh.

6. Aytəkin Məmmədova. Azərbaycanda yoxsulluğa səbəb olan amillər və onların aradan qaldırılması yolları, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), 21 fevral 2016-cı il file:///C:/Users/user/Downloads/SSRN-id3607123.pdf

7. Ə.Nuriyev. Regional siyasət və idarəetmənin əsasları. Bakı 2011.

8. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf/Bakı: Avropa. 2017-240s.

9. A.N.Muradov. və b. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. (kolloktiv monoqrafiya) Bakı 2008.

10. Зульфугарзаде Т. Э. Основы социального государства и гражданского общества: Учебник в электронном формате (Высшее профессиональное образование). Москва: Издательский центр Академия, 2014.-192 с.

11. Харисов Ильгиз Шамгунович. Социальная работа в регионе: организационно-управленческий механизм: На примере Республики Татарстан : автореферат дис. ... кандидата социологических наук : 22.00.08 / Казан. гос. технол. ун-т. - Казань, 2005. - 22 с. РГБ ОД, http://www.dslib.net/sociologia-upravlenia/socialnaja-rabota-v-regione.html

12. Prof. Dr. Veli DUYAN, Yrd. Doç. Dr. Cengiz OZBESLER, Okul Ortamlarında Sosyal Hizmet, 2014.

13. Gülşen Şimşek, Fatih Altun, “Sosyal Belediyecilikte Sosyal Hizmetlerin ve Sosyal Girişimci Faaliyetlerin Rolü”, Sosyal Çalışma Dergisi-2020. https://dergipark.org.tr/en/download/article-file/1146406

14. Kurşun A, Rakıcı C (2016) Sosyal Refah Devletinin Tarihi Süreci ve Günümüz Bazı Refah Devletlerinin Değerlendirilmesi. Uluslararası Ekonomi ve Yenilik Dergisi, 135-156.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adları | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | **Fənnin predmeti, məqsədi və vəzifələri** | Fənnin predmeti və obyekti. Fənnin məqsədi və vəzifələri. Regional sosial işin əsas prinsipləri. Fənnin məzmunu və onun başqa fənlərlə əlaqəsi. | 1. Sosial xidmət haqqında Azərbaycan Respublikasinin Qanunu, Bakı şəhəri, 30 dekabr 2011-ci il.<br>2. Харисов Ильгиз Шамгунович. Социальная работа в регионе: организационно-управленческий механизм: На примере Республики Татарстан : автореферат дис. ... кандидата социологических наук : 22.00.08 / Казан. гос. технол. ун-т. - Казань, 2005. - 22 с. РГБ ОД,<br>3. Gülşen Şimşek, Fatih Altun, “Sosyal Belediyecilikte Sosyal Hizmetlerin ve Sosyal Girişimci Faaliyetlerin Rolü”, Sosyal Çalışma Dergisi-2020. |
| **2** | **Regional sosial problemlər** | Müasir sosial problemlərin tədqiqi prinsipləri. Sosial problemlərin qarşılıqlı bağlılığı.Sosial problemin və onun həlli yollarının fənlərarası dərki. Sosial problemin mövcudluğunun çoxsəviyyəli xarakteri. Sosial problemlərin öyrənilməsində sistemli müqayisəli təhlil. Sosial problemlərin təsnifatı. Regional sosial problemlərin yaranma səbəbləri və xüsusiyyətləri. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu.<br>3. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008-2015-ci illər). Bakı, 2008. |
| **3** | **Regional sosial-iqtisadi inkişaf indikatorları** | Regional sosial-iqtisadi inkişafın vacib anlayışları və xarakterik cəhətləri. Regional sosial-iqtisadi inkişafın effektivliyi və qiymətləndirilməsi. Regional sosial-iqtisadi inkişaf göstəriciləri. Regionun sosial-iqtisadi inkişafının idarə edilməsi. Regionların sosial-iqtisadi inkişafını şərtləndirən | 1. Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik probleminə dair Araşdırma Sənədi Ekspertlər: Rövşən Ağayev / Azər Mehtiyev.<br>2.https://antifenu.wordpress.com/2012/11/16/regionlarda-sosial-infrastrukturun-inkisaf-probleml%C9%99ri/ |

| | | | |
|---|---|---|---|
| | | amillər. | |
| 4 | **Regional sosial siyasətin konsepsiyaları** | Sosial nəzəriyyə və sosial siyasət. Hüquqi dövlət anlayışının mahiyyəti və əlamətləri. Vətəndaş cəmiyyəti konsepsiyası. Sosial dövlət. Ümumi rifah dövləti konsepsiyasının mahiyyəti. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh. |
| 5 | **Regional yoxsulluq və ona qarşı mübarizə** | Yoxsulluğun mahiyyəti və səbəbləri. Yoxsulluğun növləri və nəticələri. Regional yoxsulluğun müəyyənləşdirilməsi və ölçülməsi. İnsan hüquqları və regional yoxsulluq. Regional yoxsulluq və minilliyin inkişaf məqsədləri. Azərbaycanda regional yoxsulluğa qarşı mübarizə tədbirləri. Sosial və iqtisadi dəstək xidmətləri. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2. Aytəkin Məmmədova. Azərbaycanda yoxsulluğa səbəb olan amillər və onların aradan qaldırılması yolları, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), 21 fevral 2016-cı il.<br>3.https://banker.az/avropada-yoxsulluq-kim-yoxsul-hesab-olunur/ |
| 6 | **Regional işsizlik və həlli yolları** | İşsizliyin mahiyyəti, ölçülməsi və formaları. Məşğulluq və işsizliyin tənzimlənməsində regional əmək bazarının rolu. Dövlətin regional məşğulluq siyasəti. | 1.Ə.Nuriyev. Regional siyasət və idarəetmənin əsasları. Bakı 2011.<br>2.A.N.Muradov. və b. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. (kolloktiv monoqrafiya) Bakı 2008.<br>3.“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı’’. |
| 7 | **Regionlarda təhsil problemi və həlli yollari** | Təhsilin mahiyyəti və məzmunu. Müasir dövrdə təhsilin aktual problemləri və tendensiyalar. Regionlarda məktəb sosial işi. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2. zərbaycan Respublikasında təhsilin inkişaf üzrə Dövlət Strategiyası. (2013). 24 oktyabr. |
| 8 | **Regionlarda əhalinin sağlamlıq problemi və həlli yolları** | Əhali sağlamlığının qorunması problemi. Sağlamlığa təsir edən əsas amillər. Səhiyyənin təşkili modelləri. Regionlarda tibbi sosial işin təşkili. Tibbi sosial işin əhatə dairəsi, vəzifə və məsuliyyətlər. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2.“Əhalinin sağlamlığının qorunması” haqqında Azərbaycan respublikasının qanunu. 26 iyun 1997-ci il. |
| 9 | **Regionlarda əhaliyə göstərilən sosial xidmətlər** | Sosial xidmət anlayışı, onun forma və növləri. Sosial iş sosial müdafiənin mexanizmlərindən biri kimi. Regional səviyyədə əhaliyə sosial dəstək proqramları. Azərbaycanda ehtiyac dərəcəsinin müəyyənləşdirilməsi mexanizmləri. | 1.Sosial Xidmət Haqqında Azərbaycan Respublikasının qanunu, 30 dekabr 2011-ci il, Bakı, Azərbaycan.<br>2.Ahıllara Sosial Xidmət Haqqında Azərbaycan Respublikasının qanunu, 22 iyun 2001-ci il, Bakı, Azərbaycan.<br>3.Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh. |

| | | | |
|---|---|---|---|
| 10 | **Sosial siyasətin regional aspektləri** | Dövlətin sosial siyasətinin regional adaptasiyası. Sosial siyasətin maraqlarına uyğun regionların tipologiyası. Regional sosial siyasətin əsas istiqamətləri. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsində yeni prioritetlər. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” Bakı şəhəri, 22 iyul 2022-ci il |
| 11 | **Əhalinin həyat səviyyəsini yüksəldən müxtəlif rifah vasitələri** | Əhalinin həyat səviyyəsini tənzimlənməsinin metodoloji əsasları. Əhalinin həyat səviyyəsinin iqtisadi göstəricilər sistemi. Sosial rifahı təmin edən qurumlar | 1.Sosial Xidmətlər Haqqında AR-nın qanunu. 30 dekabr 2011.<br>2.Yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu. /Iqtisadiyyat qəzeti, 21-27 yanvar, 2005.<br>3.«Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” 25oktyabr 2002-ci il.<br>4.Toprak D (2015) Uygulamada Ortaya Çıkan Farklı Refah Devleti Modelleri Üzerine Bir İnceleme. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 151-175. |
| 12 | **Regional sosial inkişafin maliyyə təminati** | İnkişaf, regional inkişaf və sosial kapital anlayışları. Regional inkişafda sosial kapitalın yeri və rolu. Regional inkişafda maliyyə-kredit və investisiya resursları əlçatanlığı | 1.Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf/Bakı: Avropa. 2017-240s.<br>2.Аврамчикова Т.Н. Современная региональная политика: опыт зарубежных стран / М.В.Решетнева // Вестник Сибирского государственного аэрокосмического университета имени академика. 2008, № 4(21). С. 185-191. |
| 13 | **İşğaldan azad olunmuş ərazilərdə əhali məskunlaşması poblemi** | İşğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşma. Davamlı yaşayış məntəqələri və eko-şəhər göstəriciləri. Ərazilərin bərpası və yenidən qurulmasının əsas istiqamətləri. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət. | 1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02 fevral 2021-ci il.<br>2. CESD Tədqiqat Qrupu. Azərbaycanda Sosial Müdafiə Sistemi: Qiymətləndirmə və Təkmilləşdirilməsi İstiqamətləri. Bakı, Noyabr 2016. |
| 14 | **Dövlətin regional sosial siyasəti və sosial inkişaf proqramları** | Sosial siyasətin sahəvi strukturu. Sosial siyasət subyektlərinin imkanları və məhdudiyyətləri. Müasir sosial siyasətin xüsusiyyətləri. Sosial siyasətin prioritetləri. Regionlarin inkişafina dair dövlət proqramları. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2.“Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf konsepsiyası. Bakı-2012.<br>3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02 fevral 2021. |

| | | | |
|---|---|---|---|
| 15 | **Regional sosial işin təşkilində beynəlxalq təcrübə** | Sosial dövlət və vətəndaş cəmiyyəti. Ümumi rifah dövləti. Sosial siyasət modellərinin təsnifatı . Espinq-Andersen: ümumi rifah dövləti modellərin tipləri. Ümumi rifah dövlətinin İsveç modeli. Sosial siyasətin paternalist modeli. | 1. Fərhad Pənah oğlu Rəhmanov. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 səh.<br>2. Зульфугарзаде Т. Э. Основы социального государства и гражданского общества: Учебник в электронном формате (Высшее профессиональное образование). Москва: Издательский центр Академия, 2014.-192 с.<br>3. Alp, S. (2009). Refah Devleti Düşüncesinin Gelişimi ve Bir Liberal Alternatif Olarak Üçüncü Sektör. *Maliye Dergisi*, 265-279. |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

## XIII. Sərbəst işlər (Qrup işi): nəzərdə tutulmayıb.

## XIV. Fənn üzrə qiymətləndirmə (*Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi

mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə

seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi

təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**“Ictimai idarəetmə və sosial innovasiyalar”**

**kafedrasının müdiri:** **i.f.d., dos.Məmmədov E.Q.**